Azerbaijan Journal of Botany, 2023, 2(2): 18-21 DOI:10.30546/ajb.2023.2.2.09

# ABŞERON YARIMADASININ BƏZİ NADİR VƏ İTMƏK TƏHLÜKƏSİNDƏ OLAN ALİ BİTKİLƏRİNİN TAKSONOMİYASI VƏ YAYILMASI

M.R. Verdiyeva
Bakı Dövlət Universiteti, Z.Xəlilov küçəsi 23, AZ 1148, Bakı, Azərbaycan
E-mail: medineverdiyeva8@gmail.com

Məqalədə Abşeronda rast gəlinən və müxtəlif həyat formalarına aid (kol, ot) itmək təhlükəsində olan beş növün yayılması, taksonomiyası, bioekoloji xüsusiyyətləri və onların məhdudlaşdırıcı amilləri haqqında məlumat verilir. AR ETN Botanika İnstitutunun Herbari Fondu araşdırılmış və tədqiq olunan növlərin 32 nüsxəsinin saxlanıldığı məlum olmuşdur. Ədəbiyyat materialları əsasında həmin növlərin mühafizəsinə aid ilkin zəruri tədbirlər təklif olunmuşdur.

**Açar sözlər:** Abşeron, endem, limitləşdirici amillər, mühafizə, nadir növlər

## GİRİŞ

Abşeron yarımadası flora və bitkilik baxımından Azərbaycanın maraqlı regionlarından biridir. Abşeron florasına aid əsas məlumatlar bir sıra tədqiqatçılar tərəfindən ətraflı araşdırılmışdır [Karyagin, 1952; Gurbanov, 2011; Askerov, 2016; Zernov and Mirzayeva 2021]. Alimlərimizin tədqiqatları göstərir ki, hazırda Azərbaycan florasının ali bitkilərinin ən azı 10%-i (500 növə yaxın) nadir və məhv olmaq təhlükəsi altındadır [Red Book of the Republic of Azerbaijan, 2023]. Eyni mənzərə Abşeron fitocoğrafi rayonunun florasında da müşahidə edilir. Araşdırmalar göstərir ki, Abşeron yarımadasında cəmi 5% ekoloji vəziyyəti pozulmamış ərazilər qalmışdır. Belə ki, Abşeronun kritik təhlükə həddində olan (Critically Endangered) növlərini tədqiq edən A.Əsgərovun fikrincə təkcə bu kateqoriyaya 60 növ daxildir [Askerov, 2012].

AR ETN Botanika İnstitutunun Herbari Fondunda saxlanılan kolleksiyalar öyrənilmiş və Azərbaycan Respublikasının Qırmızı Kitabının hər üç nəşrindəki [1989; 2013; 2023] materiallar əsasında əldə etdiyimiz məlumatlar qısa şəkildə aşağıda verilmişdir:

*Anogramma leptophylla* (L.) Link - Nazikyarpaq anoqramma birillik bitkidir, 5-20 sm hündürlükdədir. Sporların yetişmə dövrü may-iyun aylarına təsadüf edir. Steril yarpaqları qısa, saplaqlı, böyrəkvaridir. Sporları üçşüalıdır. Dekorativ və relikt bitkidir [Askerov, 2016]. Azərbaycan Respublikasının nadir növüdür. IUCN – in kateqoriya və meyarlarına görə milli qiymətləndirmə – EN B1ab(i,ii,iii,iv) [Red Book of the Republic of Azerbaijan, 2013-2023].

Abşeron rayonu - Puta stansiyasından 6 km şimal-qərbə doğru [Red Book of the Azerbaijan SSR, 1989; Red Book of the Republic of Azerbaijan, 2013-2023] Kor-göz dağının qərb yamacında, qaya çatlarında rast gəlinir [Herbarium Fund of Institute of Botany; Red Book of the Republic of Azerbaijan, 2013-2023; Zernov and Mirzayeva, 2021].

Bitmə şəraitinin korlanması və digər antropogen amillər növə məhdudlaşdırıcı təsir göstərir. Məlum biotopları mühafizə edilməli, təbiətdə axtarışının davam etdirilməsi təklif olunur.

Botanika İnstitutunda (BAK) bir herbari nüsxəsi saxlanılır-11.05.1945 N.A.Burchak-Abramoviç.

*Dianthus schemachensis* Schischk - Şamaxı qərənfili çoxillik, tünd-göy rəngli ot bitkisidir. Çiçəkləri tək-tək yerləşir. Yarpaqların ayası 6-8 mm uzunluğunda, tərs-yumurtavari, üstdən ağımtıl, alt tərəfdən çəhrayıdır. Çiçəkləmə-meyvə əmələgəlmə dövrü iyun ayına təsadüf edir. Quraqlığa davamlı, işıqsevəndir. Dekorativ məqsədlə istifadə olunur [Askerov, 2016]. IUCN - in kateqoriya və kriteriyalarına

görə milli qiymətləndirmə – EN B1ab(iii,iv,v) c(iii,iv)+2ab(ii)c(ii,iii) [Red Book of the Republic of Azerbaijan, 2013-2023].

Abşeron (Güzdək platosuna qalxan hissədə), Kür-Araz ovalığı (Qaradağ rayonu Qobustan qəsəbəsi), Abşeron yarımadasının şimal-qərb hissəsi, İlxı dağının qərbində, Qaradağ stansiyası yaxınlığında Otman-Bozdağı ətəklərində rast gəlinir. Düzənlikdən orta dağ qurşağına kimi quru, gilli və daşlı yamaclarda, töküntülərdə, qayalarda yayılmışdır [Herbarium Fund of Institute of Botany; Askerov et al., 2012; Zernov and Mirzayeva, 2021].

Populyasiyanın azsaylı olması və antropogen amillərin təsiri (infrastrukturun inkişafı, otarılma, tapdalanma) məhdudlaşdırıcı amillərdir. Hal-hazırda xüsusi qorunma tədbirləri aparılmır. Yeni yayılma yerlərinin axtarılması, toxumlarının toxum bankında saxlanılması, introduksiya edilməsi təklif olunur.

Botanika İnstitutunun Herbari Fondunda (BAK) 3 nüsxəsi saxlanılır - 24.05.1932-Karyagin, Qrossheim; 19.05.1939 - İ.İ.Karyagin; 21.05.1939 - İ.İ.Karyagin.

*Iris acutiloba* C.A.Mey. - İtikənarlı süsən çoxillik ot bitkisidir. Gövdə 4-12 sm hündürlükdə, əsası soğanağabənzər yoğunlaşmışdır. Yarpaqları boz-göyümtül, nazik xətvari, 1-3 mm enindədi, gövdədən adətən uzundur. Çiçəkləmə - meyvə əmələgəlmə dövrü aprel-may aylarının birinci on günlüyünə təsadüf edir [Karyagin, 1952]. Kserofit, duzlaşmaya davamlı, dekorativ bitkidir. IUCN - in kateqoriya və kriteriyalarına görə milli qiymətləndirmə – EN B2ab(iii)c(v) [Askerov, 2012].

Qobustan, Abşeron (Sement zavodunun arxası, Qaradağ Neft Terminalına yaxın, Otman-Bozdağın ətəkləri), Güzdək qəsəbəsi, Yasamal, Kor-göz dağı, Buta qəsəbəsi, Səhiyyə Nazirliyinin 4-cü şöbəsinin sahəsində rast gəlinir [Herbarium Fund of Institute of Botany]. Quru qumlu, gilli və daşlı yamaclarda, dənizkənarı qumluqlarda təsadüf edilir.

A.Əsgərovun [2012] məlumatına görə xırda populyasiyası Yanardağ Dövlət Təbiət Qoruğunda mühafizə olunur. Yayıldığı yerlərdə antropogen təsirlərin azaldılması, toxum banklarında toxumlarının saxlanılması və çoxaldılması məsləhət görülür.

Botanika İnstitutunun Herbari fondunda (BAK) 10 nüsxəsi saxlanılır - 21.05.1928 - A.A.Qrossheym, M.F.Sachokia; 05.05.1939 - N.Vixert; 24.05.1939 - İ.İ.Karyagin; 01.05.1929 - A.A. Qrossheym, M.F. Sachokia; 24.04.1986 - A.M.Əskərov.

*Astragalus bakuensis* Bunge – Bakı paxladəni (gəvəni) gövdəsiz, tükcüklü, 5-15 sm hündürlükdə, çoxillik ot bitkisidir. Yarpaqları 4-22 sm uzunluğunda, uzunsov-ellipsşəkillidir. Çiçəkləmə və meyvə əmələgəlmə dövrü may-iyun aylarına təsadüf edir. Quraqlığadavamlı, işıqsevən bitkidir. IUCN - in kateqoriya və kriteriyalarına görə milli qiymətləndirmə – CR B2b(i,ii,iii,iv,v) [Red Book of the Republic of Azerbaijan, 2023].

Abşeronda Mərdəkan kəndi yaxınlığında istifadəsiz bağda, Şüvəlan, Buzovna, Novxanı qəsəbələri, Xırdalan şəhəri ətrafında rast gəlinir [Herbarium Fund of Institute of Botany; Zernov and Mirzayeva, 2021].

Bitdiyi biotopların antropogen təsirlər altında olması məhdudlaşdırıcı amillərdir. Digər nadir növlərlə birlikdə rezervat şəklində qorunması məsləhət görülmüşdür [Red Book of the Azerbaijan SSR, 1989; Red Book of the Republic of Azerbaijan, 2013-2023].

Botanika İnstitutunun Herbari Fondunda 3 nüsxəsi saxlanılır - 30.04.1938 - A.A.Qrossheym; 08.05.1948 - R.Shukova; 28.04.1933 - İ.İ.Karyagin, Y.İsayev, 2012-A.Əskərov.

*Calligonum bakuense* Litv. - Bakı cuzğunu 1,5 m hündürlüyündə dağınıq budaqlı koldur. Yarpaqları sapşəkillidir, 2-4 mm uzunluqda, tez tökülləndir. Çiçəkləməsi may-iyun aylarına təsadüf edir. IUCN - in kateqoriya və kriteriyalarına görə milli qiymətləndirmə – EN B1ab(i,ii,iii,iv,v)+2ab(i,ii,iii,iv,v) [Red Book of the Republic of Azerbaijan, 2023].

Duvannı, Mərdəkan, Balaxanı, Böyük şor gölünün yaxınlığında, Xəzər dənizi sahilində, Umbakı qəsəbəsi yaxınlığında, Sanqaçal şəxsi bağ evlərinin ərazisində rast gəlinir. Əsasən dənizkənarı sahələrdə qumluq ərazilərdə çox

nadir hallarda tək-tək təsadüf edilir [Herbarium Fund of Institute of Botany; Askerov, 2012; Zernov and Mirzayeva, 2021]

Antropogen amillər (infrastrukturun inkişafı, sahilboyu ərazilərin tikintisi), areallarının çimərlik və istirahət mərkəzi kimi mənimsənilməsi məhdudlaşdırıcı amillərdir. Abşerondakı lokalitetlərin hamısının zərər görmədən nəzarətə götürülməsi, Nəbatət bağları, Dendroparklarda əkilməsi təklif olunur.

Botanika İnstitutunun Herbari fondunda 15 nüsxəsi saxlanılır - 16.05.1907 - Q.Petunnikov; 27.07.2013 - V.M.Kərimov; 24.06.1967 - F.Əhmədzadə; 05.1954 - S.D.Aqadjanov; 12.06.1972 - Q.Abıyev, Q.Axundov; 27.05.1984 - F.Əhmədzadə; 23.07.1961 - S.Zeynalov; xx.xx.2012 - A.Əskərov və b.

Məqalə Botanika İnstitutunun Herbari Fondunda saxlanılan herbari və ədəbiyyat materialları əsasında yazılmışdır. Materiallarla tanışlıq əsasında Azərbaycan Respublikasının Qırmızı Kitablarından əldə edilmiş məlumatlar təhlil edilmişdir [1989; 2013; 2023]. Birinci nəşrdə tədqiq olunan beş növdən dördü yer almış (*Anogramma leptophylla, Astragalus bakuensis, Calligonum bakuense, Iris acutiloba*), ikinci nəşrdə isə bu say artmışdır (*Dianthus schemachensis*), üçüncü nəşrdə bu say dəyişilməmiş olaraq qalmışdır. Mövcud olan və yeni toplanılan materialların öyrənilməsi nəticəsində növlərin yayılması, bitmə şəraiti və itmək təhlükəsinə aid əldə edilən məlumatlar Qırmızı Kitabın növbəti nəşrlərində istifadə oluna bilər.

## ƏDƏBİYYAT


Askerov A.M. (2016) Plant kingdom of Azerbaijan (Higher plants - Embryophyta). Baku: TEAS Press Publishing House, 444 p [Əsgərov A.M. (2016) Azərbaycanın bitki aləmi (Ali bitkilər - Embryophyta). Bakı: TEAS Press Nəşriyyat Evi, 444 s.]

Askerov A.M., Asadova K.V., Guvendiyev V.M., Azizkhanli Kh.M., Eldarov M.E. (2012) Development of scientific basis for biosystematic study, protection and in situ restoration of Critically Endangered higher plants (In the example of flora biodiversity of Absheron). Proceedings of the Institute of Botany, ANAS, v. 32, p. 25-33. [Əsgərov A.M., Əsədova K.V., Güvəndiyev V.M., Əzizxanlı X.M, Eldarov M.E. (2012) Kritik təhlükə həddində olan (Critically Endangered) ali bitkilərinin biosistematik tədqiqi, mühafizəsi və *in situ* bərpasının elmi əsaslarının işlənib hazırlanması (Abşeronun florabiomüxtəlifliyi misalında). AMEA Botanika İnstitutunun elmi əsərləri, 32-ci cild, s. 25-33].

Gurbanov E.M. (2011) Analysis of the flora of the Absheron Peninsula. Proceedings of Institute of Botany, ANAS, v. 31, p. 76-81. [Qurbanov E.M. (2011) Abşeron yarımadası florasının analizi. AMEA Botanika İnstitutunun elmi əsərləri, 31-ci cild, s. 76-81].

Karyagin I.I. (1952) Flora of Absheron. Baku: Publishing of the Academy of Sciences of the Azerbaijan SSR,, 391 p. [Карягин И.И. (1952) Флора Апшерона. Баку: Изд-во АН Азербайджанской ССР, 391 с.].

The Red Book of the Azerbaijan SSR (1989) Baku: Ishig, 544 p. [Azərbaycan SSR-in Qırmızı kitabı (1989) Bakı: İşıq, 544 s.].

The Red Book of the Republic of Azerbaijan. (2013) Baku: Sharg-Garb Publishing House, 676 p. [Azərbaycan Respublikasının Qırmızı kitabı, (2013) Şərq-Qərb Nəşriyyatı, 676 s.].

The Red Book of the Republic of Azerbaijan. (2023) Baku: Ishig, 507 p. [Azərbaycan Respublikasının Qırmızı kitabı (2023) Bakı: İşıq, 507 s.].

Zernov A.S., Mirzayeva N.Sh. (2021) Checklist of Absheron flora. Baku: 204 p. [Zernov A.S., Mirzəyeva N.Ş. (2021) Abşeron florasının məlumat siyahısı. Bakı: 204 s.].

## Таксономия и распространение некоторых редких и находящихся под угрозой исчезновения высших растений Абшеронского полуострова

**М.Р. Вердиева**
Бакинский Государственный Университет, З.Халилов пр. 23, AZ1148, Баку, Азербайджан

В статье приведены сведения о распространении, таксономии, биоэкологических характеристиках, лимитирующих факторах пяти находящихся под угрозой исчезновения видов различных жизненных форм (кустарники, травы), встречающихся на Абшероне. В результате исследования гербарного фонда Института ботаники МНО АР было установлено, что сохранилось 32 экземпляра изученных видов. На основе литературных материалов предложены предварительные необходимые меры по охране этих видов.

**Ключевые слова:** Абшерон, эндем, лимитирующие факторы, охрана, редкие виды

## Taxonomy and distribution of some rare and endangered higher plants of Absheron peninsula

**M.R. Verdiyeva**
Baku State University, Z.Khalilov str. 23, AZ1148, Baku, Azerbaijan

The article provides information on the distribution, taxonomy, bioecological characteristics and their limiting factors of five endangered species of various life forms (shrubs, grasses) found in Absheron. The Herbarium Fund of the Institute of Botany, MSE RA was examined and it was found that 32 copies of the studied species are kept. On the basis of literature materials, preliminary necessary measures for the protection of those species were proposed.

**Keywords:** Absheron, endemic, limiting factors, conservation, rare species